**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ƏDALƏT İSMAYIL OĞLU QASIMOV**

# AZƏRBAYCAN RESPUBLİKASINDA FÖVQƏLADƏ HALLARLA MÜBARİZƏ SİSTEMİNİN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI (1991-2010-CU ILLƏR)

İxtisas: 5503.02 – Vətən tarixi

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

# A V T O R E F E R A T I

**Bakı – 2013**

*Dissertasiya AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Azərbaycan Respublikasının tarixi şöbəsində yerinə yetirilmişdir.*

**Elmi rəhbər:**
tarix üzrə fəlsəfə doktoru **C.Ə.Bəhramov**

**Rəsmi opponentlər:**
tarix elmləri doktoru, professor **L.L.Həsənova**

tarix üzrə fəlsəfə doktoru, dosent **H.A.Alıyev**

**Aparıcı təşkilat:** AMEA Milli Azərbaycan Tarixi Muzeyinin "Azərbaycanın elmi ekspozisiyası" şöbəsi

Müdafiə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının "__19__" _06__________ 2013-ci il tarixli iclasında, saat ____-da keçiriləcəkdir.

**Ünvan:** AZ 1143, Bakı şəhəri, H.Cavid prospekti, 31.

**Dissertasiya ilə AMEA Tarix İnstitutunun elmi Arxivində tanış olmaq olar.**

**Avtoreferat** "____" __________2013-cü ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi**
**tarix üzrə elmlər doktoru** **Ə.Q.Qasımov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** İctimai tərəqqi çox mürəkkəb, təzadlı, qeyri-bərabər bir proses olaraq əksər hallarda insanın və cəmiyyətin öz təhlükəsizliyini təmin etmək, aclıqdan, xəstəlikdən qaçmaq, komfort həyat şəraitinə nail olmaq, təcavüzdən qorunmaq, ətraf mühiti qoruyub saxlamaq və s. faktorlardan asılıdır. Demək olar ki, bütün dövrlərdə tərəqqinin ümdə məqsədi həyatın daha yüksək keyfiyyətinə və təhlükəsizliyinə etibarlı təminat yaratmaq olmuşdur. Bu prioritet məqsədlər öz aktuallığını itirməyib, əksinə, bütün digər təhlükəsizlik sferaları kimi ictimai, sosial təhlükəsizliyin əhəmiyyəti, həyatın keyfiyyətindəki çəkisi xeyli dərəcədə artmaqdadır.

Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında qeyd edildiyi kimi, Qərb və Şərq dünyalarının qovuşduğu coğrafi məkanda yerləşən Azərbaycan Respublikası bir çox sivilizasiyaların müsbət məqamlarını özündə cəmləşdirmişdir. Avropanın mütərəqqi dəyərlərini paylaşan və Avroatlantik təhlükəsizlik sisteminin ayrılmaz bir hissəsi olan Azərbaycan Respublikası bu məkanın təhlükəsizliyinə öz töhfəsini verməkdədir. Azərbaycan Respublikasının yerləşdiyi region hazırda qeyri-sabit regionlardan biri olsa da, inkişaf üçün səmərəli istifadə oluna biləcək geniş potensiala və imkanlara malikdir. Ölkəmizin zəngin təbii ehtiyatları onun çiçəklənməsi və milli rifahın təmin olunmasına əlverişli şərait yaradır, onu beynəlxalq əhəmiyyətli enerji mənbəyi və beynəlxalq enerji təchizatı şəbəkəsinin mühüm tərkib hissəsinə çevirir.

Birincisi, xalqın təkidi ilə 1993-cü ildə Azərbaycan Respublikasında ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyevin fövqəladə hallarla mübarizə sahəsində qəbul etdiyi qərarlar, həyata keçirdiyi tədbirlər Azərbaycan Respublikasında fövqəladə halların qarşısının alınması və belə hallarda fəaliyyət üzrə Dövlət Sisteminin inkişafında yeni, mühüm mərhələnin əsasını qoydu və onu daha da inkişaf etdirdi. Ümummilli liderimiz sosial-iqtisadi həyatın bütün sahələri kimi xalqın təhlükəsiz və firavan həyatının təmin edilməsi işinə xüsusi əhəmiyyət vermişdir. Heydər Əliyev ölkə ərazisində baş verən hər hansı təbii və texnogen xarakterli fövqəladə hadisəyə çevik və məqsədyönlü reaksiyası, bu kimi hadisələrin nəticələrinin vaxtında aradan qaldırılması məqsədilə verdiyi tapşırıq və göstərişlər ilə fövqəladə halların idarə edilməsi sahəsində də zəngin həyat təcrübəsinə və biliyə

malik olmasını sübut etmiş oldu.

Müasir Azərbaycan dövlətinin qurucusu, ümummilli liderimiz Heydər Əliyev sosial-iqtisadi həyatın bütün sahələri kimi xalqımızın təhlükəsiz və firavan həyatının təmin edilməsi işinə də daim diqqət və əhəmiyyət vermişdir. Ulu öndərin ölkə ərazisində baş verən hər hansı təbii və texnogen xarakterli fövqəladə hadisəyə çevik və məqsədyönlü reaksiyası, bu kimi hadisələrin nəticələrinin vaxtında aradan qaldırılması məqsədilə verdiyi göstəriş və tapşırıqları, fövqəladə halların idarə edilməsi sahəsində zəngin təcrübəsi hərtərəfli öyrənilməli və tətbiq edilməlidir.

Ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə özünün ən sürətli inkişaf mərhələsinə keçən yanğından mühafizə, qəza-xilasetmə, mülki müdafiə sistemi və onun tərkib hissələrinin ən müasir texniki avadanlıqlar, rabitə qurğuları ilə təchiz edilməsinə başlanılmışdı. Əgər yarandığı ilk gündən XX əsrin 60-70-ci illərinə qədər bu sistemdə çalışanların əksəriyyətini qeyri-azərbaycanlılar təşkil edirdisə, Heydər Əliyevin məqsədyönlü siyasəti nəticəsində bu mənzərə tamamilə əksinə dəyişdi.

Məhz Heydər Əliyevin rəhbərliyi dövründə azərbaycanlılar keçmiş SSRİ-nin müvafiq ali məktəblərində təhsil alaraq yüksək ixtisaslı mütəxəssislər kimi vətənə dönürdülər. Azərbaycanda fövqəladə hallarla mübarizə sahəsinin möhkəmləndirilməsi, onun maddi-texniki bazasının genişləndirilməsi, hüquqi bazasının yaradılması üçün səmərəli tədbirlər həyata keçirildi.

Müstəqilliyin ilk illərində Azərbaycanda mövcud olmuş siyasi xaos və özbaşınalıq şəraiti fövqəladə hallarla mübarizə və mülki müdafiə sisteminə də öz mənfi təsirini göstərmişdi. Dövlət sisteminin maddi-texniki bazası dağıldığına və kadr potensialı zəiflədiyinə görə faktiki olaraq qarşısına çıxan vəzifələrin öhdəsindən gəlmək iqtidarında deyildi.

Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra digər sahələrdə olduğu kimi, təbii və texnogen xarakterli fəlakətlərdən əhalinin etibarlı mühafizəsini təşkil etmək məqsədilə mühüm işlər görüldü, müasir texnika və avadanlıqları alındı, xilasedici mütəxəssislərin hazırlanmasına diqqət artırıldı, bu sahənin dirçəldilməsi və inkişafı üçün bir sıra ümumdövlət əhəmiyyətli qərarlar qəbul edildi. Heydər Əliyev fövqəladə halların baş verdiyi ərazilərə gedərək, hadisə yerində mövcud vəziyyətlə şəxsən tanış olur,

lazımi tapşırıqlar verir, təxirəsalınmaz tədbirləri müəyyənləşdirir və onların yerinə yetirilməsinə bilavasitə özü nəzarət edirdi.

Məhz Heydər Əliyevin imzası ilə Azərbaycan Respublikası fövqəladə hallarla mübarizəni tənzimləyən və bu sistemi özündə ehtiva edən bir neçə qanun, o cümlədən "Yanğın təhlükəsizliyi haqqında", "Mülki müdafiə haqqında", "Yanğından icbari sığorta haqqında" qanunlar, Nazirlər Kabinetinin müvafiq qərarları və digər qanunvericilik aktları qəbul edildi.

İkincisi, mövzunun öyrənilməsi təsdiq edir ki, son illərdə antropogen və təbii xarakterli fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması ölkə rəhbərliyinin diqqət yetirdiyi mühüm strateji sahələrdən biridir. Həyatın bütün sahələrində ümummilli liderimizin siyasətini uğurla həyata keçirən Respublika Prezidenti İlham Əliyev həyat fəaliyyətinin təhlükəsizliyinin təmin edilməsi, fövqəladə hallarla mübarizə üçün etibarlı milli sistemin yaradılması üçün müvafiq addımlar atdı.

Azərbaycan Respublikasında təbii fəlakətlərin, texnogen xarakterli qəzaların və yanğınların qarşısının alınmasını, onların nəticələrinin aradan qaldırılmasını, belə hallarda xilasetmə və bərpa işləri üzrə müvafiq orqanların fəaliyyətinin vahid mərkəzdən idarə olunmasını, ölkədə mülki müdafiə işinin təşkilini və həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 16 dekabr 2005-ci il tarixli fərmanı ilə Fövqəladə Hallar Nazirliyinin yaradılması bu istiqamətdə həyata keçirilən mühüm dövlət siyasətinin əsası oldu. Fövqəladə hallarla mübarizə sisteminin dövrün tələblərinə uyğun yenidən qurulması, onun qanunvericilik və hüquqi bazasının formalaşdırılması, fövqəladə hallarda əhalinin təhlükəsizliyinin təmin edilməsi və maddi zərərin azaldılması sahəsində Azərbaycan dövlətinin fəaliyyəti bu təcrübənin elmi cəhətdən hərtərəfli təhlil edilməsini vacib problem kimi ortaya çıxarır.

Üçüncüsü, Fövqəladə Hallar Nazirliyinin strukturunun formalaşdırılması, milli kadrların hazırlanması, baş verən fövqəladə hallara çevik və səmərəli reaksiya verilməsi məqsədilə aidiyyəti strukturların sistemli fəaliyyətinin təmin edilməsi, eləcə də fövqəladə halların idarə edilməsi sahəsində zəngin təcrübəyə malik ayrı-ayrı ölkələrin müvafiq qurumları ilə, habelə bir sıra beynəlxalq və regional təşkilatlarla əlaqələrin inkişaf etdirilməsi istiqamətində xeyli işlər görüldü. Bütün bunlar 1991-2010-cu illər ərzində həyat fəaliyyətinin

təhlükəsizliyinin təmin edilməsi sahəsində müstəqil Azərbaycan dövlətinin əldə etdiyi müsbət təcrübənin öyrənilməsini zəruri edir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Tədqiqat işi 1991-2010-cu illəri əhatə edir. Bu dövrü fövqəladə hallarla mübarizə sisteminin formalaşması baxımından şərti olaraq iki mərhələyə ayırmaq olar. 1991-2005-ci illəri əhatə edən birinci mərhələ müstəqil Azərbaycanda mülki müdafiə sisteminin yaradılması, müvafiq hüquqi və qanunvericilik bazasının formalaşdırılması, xarici dövlətlərlə fövqəladə hallarla mübarizə sahəsində əlaqələrin yaradılması ilə səciyyələnir.

Bütün bu məsələlərin həlli fövqəladə hallarla mübarizənin milli sisteminin formalaşmasının yeni mərhələsində, Azərbaycan Respublikası Prezidentinin Fövqəladə Hallar Nazirliyinin yaradılması haqqında 16 dekabr 2005-ci il tarixli Fövqəladə Hallar Nazirliyinin fəaliyyətini təşkil etmək və təkmilləşdirmək məqsədi ilə qəbul etdiyi fərmanının və digər normativ aktların qəbulu ilə öz həllini tapdı. Bununla da Azərbaycanda fövqəladə hallara qarşı mübarizənin milli sisteminin inkişafının ikinci mərhələsi – sistemin tam formalaşması dövrü başlandı. Bu proses 2006-cı ildən başlayaraq bu gün də uğurla davam etdirilir.

**Mövzunun öyrənilmə səviyyəsi.** Azərbaycan Respublikasında fövqəladə hallarla mübarizə sahəsində müasir milli sistemin formalaşması müstəqil dövlətçilik tariximizlə üst-üstə düşür. Bu baxımdan problemin tarixşünaslığından danışmaq hələlik tezdir. Ölkəmizdə fövqəladə halların idarə edilməsi, onun nəticələrinin aradan qaldırılması üzrə yaranan təcrübənin öyrənilməsini və ümumiləşdirilməsini özündə ehtiva edən əsərlərin yaradılması hələ qabaqdadır.

Qeyd etmək lazımdır ki, həyat fəaliyyətinin təhlükəsizliyini bir çox elm sahələrinin, o cümlədən fizika, kimya, iqtisadiyyat, pedaqogika, mədəniyyətşünaslıq, informatika, təbabət, hüquq, sosiologiya, texnika elmlərinin tədqiqat obyekti sayılır. Buna görə də bu sahənin öyrənilməsi müxtəlif elmi biliklərin inteqrasiyasını tələb edir. Bu baxımdan texnika elmləri doktoru H.Ocaqovun əsərləri diqqətə layiqdir.

Onun həyat fəaliyyətinin təhlükəsizliyinə aid bir sıra elmi əsərlərində, dərs vəsaitləri və doktorluq dissertasiyasında Azərbaycanda ilk dəfə olaraq fövqəladə vəziyyətlərə dair bütöv baxışlar və təkliflər sisteminin nəzəri əsasları sistemləşdirilmiş, nəzərdən keçirilmiş və

təhlil edilmiş, Azərbaycanın konkret xüsusiyyətləri nəzərə alınmaqla texnogen, təbii və ekoloji xarakterli fövqəladə hadisələrin (halların) təsnifatı verilmişdir.

Müəllifin doktorluq dissertasiyasında və əsərlərində fövqəladə hallarda Azərbaycan Respublikasında əhalinin müdafiəsi və həyat fəaliyyətinin təmin edilməsinin prinsip və konsepsiyası hazırlanmış və əsaslandırılmışdır.

Müəllifin əsərləri respublika ərazisində ehtimal olunan təbii və texnogen xarakterli təhlükələrin təsnifatını və xarakterini, fövqəladə hadisələrin yaranmasına və inkişafına, aradan qaldırılmasına və ləğv edilməsinə təsir göstərən faktorların müəyyənləşdirilməsi baxımdan da mühüm nəzəri və metodoloji əhəmiyyətə malikdirlər. Lakin H.Ocaqovun əsərlərində mövzunun əsasən texniki-təşkilati tərəfləri ön plana çəkilir. Azərbaycanda həyat fəaliyyətinin təhlükəsizliyinin ictimai-siyasi, tarixi aspektləri isə hələlik monoqrafik tədqiqatlardan kənarda qalmışdır.

Azərbaycanın coğrafiyaçı alimlərinin bir sıra monoqrafiya və əsərlərində təbii fəlakətlərin coğrafi baxımdan öyrənilməsinin nəzəri və metodoloji əsasları, onların iqtisadi və sosial-coğrafi baxımdan öyrənilmə metodları, fiziki, iqtisadi və sosial coğrafi yönümlü təsnifatı verilmişdir. Azərbaycan ərazisində baş verən əksər təbii fəlakətlərin respublika iqtisadiyyatına vurduqları zərərlər, istehsalın ərazi təşkilində təbii fəlakətlərin nəzərə alınmasının vacibliyi və onlara qarşı mübarizə tədbirləri ətraflı xarakterizə edilmişdir.

Mövzuya aid elmi tədqiqat işlərindən H.Alıyevin tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiyanı göstərmək olar.[1] Dissertasiyada Azərbaycan Respublikasında mülki

---

[1] Ocaqov H. Fövqəladə hallarda əhalinin mühafizəsi. B, 1991; Ocaqov H. Fövqəladə hallarda həyat fəaliyyətinin təhlükəsizliyi. Tədris vəsaiti. B., MN nəşr, 1993, 90 s.; Ocaqov H. Həyat fəaliyyətinin əsasları.; Ocaqov H. Həyat fəaliyyətinin təhlükəsizliyi. Mülki müdafiə. B., 2000; Ocaqov H. Mülki müdafiə fövqəladə hallarda. B., 1991; Ocaqov H., Nəzərov M. Təbii fəlakətlər, qəzalar və onların mühafizəsi. Dərs vəsaiti. B., 1991, 129 s.; Оджагов Г., Гаджиев А. Чрезвычайные ситуации и ликвидация их последствий. Б., 1998; Оджагов Г. О., Лобынцев А. и др.; Защита населения в чрезвычайных ситуациях. Учеб. пособие. Б., 1991, 122 с.; Расширяются горизонты сотрудничества// "ТН", 2006, № 01 (01), s. 40-43; Сотрудничество между МЧС Азербайджана и России выходит на новой уровень// "ТН", 2006, № 01 (01), s. 44-47; Сочинская встреча министров по чрезвычайм ситуациям стран

müdafiənin yaranması və inkişafı (1920-1994-cü illər) tədqiq edilmişdir. Əsərin son paraqrafında Azərbaycan Respublikasında istiqlalın ilk illərində (1991-1993-cü illər) müstəqil mülki müdafiə sisteminin yaradılması sahəsində görülən işlər işıqlandırılmışdır.[2]

H.Xudiyevin namizədlik dissertasiyasında ötən yüzillikdə Azərbaycanda yanğından mühafizə xidmətinin təşəkkülü və fəaliyyətinin öyrənilməsinə ilk dəfə olaraq cəhd edilmişdir.[3] Dissertasiyanın üçüncü fəslində müasir mərhələdə Azərbaycan Respublikasının yanğından mühafizə sisteminin fəaliyyəti, bu sahənin maddi-texniki inkişafı, hüquqi-normativ bazasının formalaşmasına təsir göstərən qanun və qərarlar təhlil edilmişdir. Həmin müəllifin "Odlu tarix" adlı dörd cildlik kitabı fövqəladə hallarla mübarizə sisteminin tərkib hissəsi olan yanğından mühafizə xidmətinin tarixinə dair sənədli materiallarla zəngindir. Əsərin müasir dövrümüzə aid hissəsində bizim tədqiqatımızla bağlı bir sıra məqamlara diqqət yetirilmişdir.[4]

**Tədqiqatın mənbə bazası.** Problemin tədqiqində ən müxtəlif mənbələrdən istifadə edilmişdir. Mövzu üzərində işləyərkən ümummilli liderimiz Heydər Əliyevin həyat təhlükəsizliyi ilə bağlı fikirləri, çıxışları, tövsiyələri və Azərbaycan dövlətinin başçısı kimi qəbul etdiyi qərarlar mühüm mənbə rolunu oynamışdır. Bu sənədlər Heydər Əliyevin bir sıra məcmuə və külliyyatlarında nəşr edilmişdir.[5]

---

ОЧЭС стала важным шагом в координации совместных действий по реагированию на чрезвычайные ситуации// "ТН", 2006, № 01 (01), s. 48-49.

2 Alıyev H. Azərbaycan Respublikasında mülki müdafiənin yaranması və inkişafı tarixi (1920-1994-cu illər). Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 1998.

3 Xudiyev H. XIX əsrin sonu – XX əsrdə Azərbaycanın yeraltı və yerüstü sərvətlərinin qorunub saxlanılmasında yanğından mühafizə idarəsinin rolu. Tarix elmləri namizədi alimlik dər. almaq üçün dissertasiyanın avtoreferatı. Bakı, 2007.

4 Xudiyev H., Hüseynov M. Odlu tarix, I kitab. Bakı, 1999, 160 s.; Xudiyev H., Hüseynov M. Odlu tarix, II kitab. Bakı, 2000, 160 s.; Xudiyev H., Hüseynov M. Odlu tarix, III kitab. Bakı, 2001, 160 s.; Xudiyev H., Hüseynov M. Odlu tarix, IV kitab. Bakı, 2002, 160 s.; Xudiyev H. Azərbaycanın yanğın təhlükəsizliyi xidməti. Bakı, 2002, 104 s.; Xudiyev H. Qaynaqlarda Azərbaycanda yanğınla mübarizənin təşəkkülünə dair bəzi məsələlər // Pedaqoji Universitetin xəbərləri (Humanitar elmlər seriyası), № 5, 2000, s. 163-171.

5 Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları. 1994-2010-cu illər; Bakı, Sumqayıt şəhərlərində və respublikanın bir sıra rayonlarında baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması tədbirləri haqqında Azərbaycan

Qeyd edildiyi kimi, Heydər Əliyevin prezidentliyi dövründə Azərbaycan Respublikasında fövqəladə hallarla mübarizə, bütövlükdə həyat fəaliyyətinin təhlükəsizliyinin hüquqi bazasını təşkil edən qanunvericilik aktlarından dissertasiyanın hazırlanmasında istifadə edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə fövqəladə hallarla mübarizə vahid dövlət sisteminin yaradılmasını təmin etmək məqsədi ilə qəbul etdiyi qərarlar, o cümlədən Fövqəladə Hallar Nazirliyinin təşkili, fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı imzaladığı fərman və sərəncamlar, qəbul etdiyi dövlət proqramları, eləcə də İlham Əliyevin prezidentliyi dövründə qəbul edilmiş müvafiq normativ-hüquqi aktlar problemin tədqiqində mühüm baza rolunu oynamışdır.

Dissertasiya üzərində iş aparılarkən Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin və onun müvafiq strukturlarının fəaliyyətini tənzimləyən hüquqi normativ sənədlər, əsasnamələr geniş təhlil edilmişdir. Qeyd edək ki, Azərbaycan Respublikasında fövqəladə hallarla mübarizə sistemini, bütövlükdə həyat təhlükəsizliyini ehtiva edən normativ hüquqi sənədlər bir sıra məcmuələrdə nəşr edilib.[6] Fövqəladə Hallar Nazirliyinin fəaliyyətini işıqlandıran digər mənbələr qrupunu FHN-nin cari arxivində saxlanılan sənədlər və materiallar təşkil edir ki, onlardan da mövzunun yazılmasında geniş istifadə edilmişdir.

Fövqəladə hallarla mübarizə sahəsində xarici dövlətlərin və beynəlxalq təşkilatların müvafiq qurumları ilə əməkdaşlığının işıqlandırılmasında Azərbaycan Respublikası Hökumətinin və FHN-nin bağladığı beynəlxalq və dövlətlərarası müqavilələrin mühüm əhə-

---

Respublikası Prezidentinin 27 noyabr 2000-ci il tarixli sərəncamı; "Azərbaycan" qəzeti, 2000, 28 noyabr; Əliyev H. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. 26 cilddə.

[6] Azərbaycan Respublikasının Konstitusiyası. Əlavə və dəyişikliklər. Bakı, Hüquq ədəbiyyatı, 2009, 93- s; Ətraf mühitin mühafizəsi haqqında Azərbaycan Respublikası Qanunu. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, s. 1647-7365; Fövqəladə vəziyyət haqqında Azərbaycan Respublikası Qanunu. Əlavə və dəyişikliklərlə. Bakı, Qanun, 2007, -26 s.; Mülki müdafiə haqqında Azərbaycan Respublikasının Qanunu. Əlavə və dəyişikliklərlə. Bakı, Qanun, 2008, 26 -s.; Yanğın təhlükəsizliyi haqqında Azərbaycan Respublikası Qanunu. Əlavə və dəyişikliklərlə. B., Qanun, 2007, -26 s. Dövlət sirri haqqında Azərbaycan Respublikasının Qanunu. B., Qanun, 2007,-39 s.

miyyəti vardır. Tədqiqatda onlar geniş təhlil edilərək elmi dövriyyəyə cəlb edilmişdir.[7]

Azərbaycan Respublikasının Fövqəladə Hallar naziri, general-polkovnik Kəmaləddin Heydərovun nazirliyin fəaliyyəti ilə bağlı məqalələri, müsahibələri fövqəladə halların nəticələrinin aradan qaldırılması sahəsində aparılan işin öyrənilməsi baxımından dəyərlidir.[8]

Nəhayət, mövzunun araşdırılmasında mühüm rol oynamış üçüncü qrup mənbələrə ölkə mətbuatında fövqəladə hallarla mübarizə sahəsində aparılan işlərə, FHN-nin fəaliyyətinə, bu sahədə beynəlxalq əməkdaşlığın inkişafına həsr edilmiş materiallar aiddir. Xüsusən "Azərbaycan", "Xalq qəzeti" qəzetlərində, FHN-nin "Təhlükəsiz həyat" jurnalında, "FHN-nin qəzeti"ndə, "Yanğın təhlükəsizliyi" jurnalında, DİN-in "Mübariz keşikdə" qəzetində mövzu ilə bağlı mövcud olan çoxlu sayda materiallar təhlil edilmiş və sistemləşdirilmişdir.

**Dissertasiyanın məqsəd və vəzifələri.** Azərbaycan Respublikasında həyat fəaliyyətinin təhlükəsizliyinin təmin edilməsi, fövqəladə halların qarşısının alınması, nəticələrinin ləğv edilməsi sahəsində qısa müddət ərzində çox işlər görülmüş, zəngin təcrübə toplanılmışdır. Bu təcrübənin tarixi baxımdan öyrənilməsinə və ümumiləşdirilməsinə çox böyük ehtiyac vardır. Dissertasiya işinin məqsədi də həyat təhlükəsizliyi sahəsində ölkəmizdə mövcud olan təcrübəni öyrənmək və təhlil etmək, müvafiq tövsiyələr və təkliflər irəli sürməkdən ibarətdir.

---

[7] Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi və Fransa Respublikasının Daxili İŞlər və Ərazi Abadlaşdırma Nazirliyi arasında Niyyət Protokolu. Paris şəhəri, 2006-cı il 4 oktyabr; Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi və Rusiya Federasiyasının Mülki Müdafiə, Fövqəladə Hallar və Təbii Fəlakətlərin Nəticələrinin Aradan Qaldırılması üzrə Nazirliyi arasında əməkdaşlığın fəallaşdırılması haqqında Protokol. Moskva şəhəri, 27 mart 2006-cı il; Azərbaycan Respublikasının hərbi qanunvericiliyi. B, Elm, 2006, I və II cildlər, 416 və 406-s.; Azərbaycan və Türkiyənin uyğun qurumları fövqəladə halların idarə edilməsi sistemi çərçivəsində təbii və texnogen xarakterli hadisələrə qarşı birgə mübarizə aparacaqlar// "TH", 2006, № 02 (02), s. 14-20.

[8] Heydərov K. Elə çalışmaq lazımdır ki, Azərbaycan vətəndaşlar təhlükəsiz işləsin, yaşasın və istirahət etsin // "TH", 2006, № 01 (01), s. 28-37; Heydərov K. F. Azərbaycanı intibah və dirçəliş yoluna çıxaran lider // Dirçəliş – XXI əsr, 2008, № 122-123, s. 58-70; Heydərov K. Fövqəladə Hallar Nazirliyi heç bir sərhəd tanımayan fövqəladə hallara qarşı mübarizədə öz işini dövrün tələblərinə uyğun qurmağa çalışır // "Azərbaycan" qəzeti, 2006, 16 dekabr; Heydərov K. Prezident İlham Əliyevin fəaliyyəti Heydər Əliyevin inkişaf strategiyasının böyük uğurlarla zəngin olan möhtəşəm mərhələsidir // "Azərbaycan" qəzeti, 2006, 15 oktyabr.

Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- müvafiq ədəbiyyatın təhlili əsasında Azərbaycan Respublikasında ehtimal olunan fövqəladə hadisələrin ümumi səciyyələndirilməsi, əhalinin həyat fəaliyyətinə təhlükə törədən mənbələrin müəyyənləşdirilməsi;
- müstəqillik əldə etdikdən sonra ölkəmizdə fövqəladə halların idarə edilməsi sahəsində vəziyyətin öyrənilməsi və bu sahədə hüquqi bazanın yaradılması prosesinin izlənilməsi;
- Azərbaycan Respublikasında mülki müdafiə sistemində həyata keçirilən islahatların ümumiləşdirilməsi;
- fövqəladə hallarla mübarizənin milli təhlükəsizlik konsepsiyasının tərkib hissəsi kimi nəzərdən keçirilməsi;
- Azərbaycan Respublikasında fövqəladə halların vahid mərkəzdən idarə olunması üçün atılan addımların, o cümlədən Fövqəladə Hallar Nazirliyinin, onun strukturlarının formalaşması prosesinin təhlil edilməsi;
- fövqəladə hallarla mübarizə sahəsində Azərbaycanda həyata keçirilən tədbirlərin, bu istiqamətdə qazanılan təcrübənin araşdırılması;
- sistemin maddi-texniki bazasının və kadr potensialının möhkəmləndirilməsi üçün görülən işlərin ümumiləşdirilməsi;
- Azərbaycan dövlətinin fövqəladə halların qarşısının alınması, nəticələrinin aradan qaldırılması sahəsində beynəlxalq əməkdaşlığının və xarici əlaqələrinin öyrənilməsi.

**Dissertasiyanın metodoloji əsası.** Təqdim edilən dissertasiyanın metodoloji əsasını ənənəvi ümumelmi, məntiqi və konkret tarixi metodlarla yanaşı, faktiki materialların kompleks şəkildə və müqayisəli araşdırılması ilə şərtlənən obyektiv tarixi tədqiqat metodu təşkil edir. Tədqiq edilən problemlə qismən əlaqəli olan dəyərli tədqiqat işləri də dissertasiyanın nəzəri və metodoloji bazasına xidmət edir.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan tarixşünaslığında, bütövlükdə ictimai elmlər sistemində ilk dəfə olaraq ölkəmizdə fövqəladə hallarla mübarizə sistemində, həyat fəaliyyətinin təhlükəsizliyinin təmin edilməsi sahəsində həyata keçirilən dövlət siyasəti kompleks şəkildə araşdırılmış və ümumiləşdirilmişdir.

Tədqiqatın obyekti kimi Azərbaycan Respublikasında həyat

təhlükəsizliyi və fövqəladə hallarla mübarizə milli sistemi seçilmişdir.

Tədqiqatın predmetini fövqəladə halların qarşısının alınması və belə hallarda fəaliyyət üzrə Azərbaycanın dövlət sistemi çərçivəsində həyata keçirilən kompleks tədbirlər təşkil edir.

Dissertasiyada ilk dəfə olaraq bu sahədə qəbul edilmiş milli qanunvericilik təhlil edilmiş, fövqəladə hallarla mübarizə sahəsində vahid idarəetmə sisteminin yaradılması prosesi, Azərbaycan Respublikasının dünyanın bir sıra ölkələrinin müvafiq dövlət strukturları ilə beynəlxalq əməkdaşlığı və əlaqələri araşdırılmışdır.

**Dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti.** Təqdim olunan tədqiqat əsərində fövqəladə hallarla mübarizənin dövlət sistemi Azərbaycan Respublikasının milli təhlükəsizlik sisteminin ayrılmaz tərkib hissəsi kimi nəzərdən keçirilmişdir. Əhalinin, maddi və mənəvi sərvətlərimizin xarici təsirlərdən, fəlakət və qəzalardan qorunması Azərbaycan Respublikasının inkişaf strategiyasının mühüm istiqaməti kimi müəyyənləşdirilmişdir. Dissertasiyanın nəticələrindən müvafiq sahələrdə tədqiqatların aparılmasında, xüsusi kursların və seminarların keçirilməsində istifadə oluna bilər.

Dissertasiyada irəli sürülən müddəalar ölkəmizdə fövqəladə hadisələrin qarşısının alınması və aradan qaldırılması sahəsində vahid dövlət siyasətinin, həyat fəaliyyətinin təhlükəsizliyinin elmi təminatı üzrə istiqamətləri müxtəlif proqram və layihələrin işlənib hazırlanması və həyata keçirilməsi işində, bütövlükdə fövqəladə hadisələrin qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə səmərəli dövlət sisteminin yaradılmasında, Fövqəladə Hallar Nazirliyinin Akademiyasında tədris prosesində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Azərbaycan Respublikasının tarixi şöbəsində hazırlanmış və müzakirə edilmişdir. Dissertasiya işinin mühüm aspektləri ilə əlaqədar bir sıra məsələlər Azərbaycan Respublikası, Rusiya Federasiyası və Gürcüstanda nəşr olunan elmi jurnallarda dərc olunmuşdur.

**Dissertasiyanın quruluşu:** Dissertasiya işi giriş, 3 fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **giriş** hissəsində tədqiqatı aktuallığı əsaslandırılır, onun işlənmə dərəcəsi, elmi yeniliyi, məqsəd və vəzifələri, tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti göstərilir.

Dissertasiya işinin birinci fəsli **"Azərbaycan Respublikasında fövqəladə hallarla mübarizə sisteminin təşəkkül tapması (1991-2005-ci illər)"** adlanır və 2 yarımfəsildən ibarətdir. **Birinci yarımfəsildə** Azərbaycan Respublikasında fövqəladə hallarla mübarizənin ümumi vəziyyəti təhlil olunur və göstərilir ki, bəşəriyyətin tərəqqisinə mane olan başlıca amillərdən birinin – müxtəlif mənşəli fövqəladə hadisələrin qarşısının alınması, nəticələrinin aradan qaldırılması bütün ölkələrin qarşısında duran ən vacib problemlərdəndir.

Müasir dövrdə Azərbaycan dövlətinin tərəqqisinin və çiçəklənməsinin, ölkəmizin dünya birliyində özünə layiqli yer tutmasının başlıca amillərindən biri də torpaqlarımızın, onun yeraltı və yerüstü sərvətlərinin, ən başlıcası isə əhalinin xarici təhdidlərdən, yad təsirlərdən, texnogen qəzalardan, təbii fəlakətlərdən qorunub mühafizə və müdafiə edilməsidir. Təbii fəlakətlərin bəşəriyyətə vurduğu ziyan ölçüsü dünya müharibələrinin nəticələri ilə müqayisə edilə bilər. Təsadüfi deyildir ki, BMT Baş Məclisinin 42-ci sessiyasının 42/169 nömrəli qərarı ilə 1990-cı illər təbii fəlakətlərin qarşısının alınması və onun nəticələrinin aradan qaldırılması onilliyi elan edilmişdi. Bu məsələ bütün dünya dövlətlərinin birgə əməkdaşlığını tələb edən ümumbəşəri problem olaraq qalmaqdadır.

Texnogen və təbii fəlakətlər təhlükəsi və onların dağıdıcı nəticələrinin miqyası artdıqca mülki mühafizə öz əhəmiyyətinə görə ölkənin silahlı müdafiəsinə bərabər səviyyəyə yüksəlir, milli təhlükəsizlik sisteminin ən vacib tərkib hissəsinə çevrilir. Buna görə də ona yetirilən diqqət əhalinin, iqtisadiyyatın, təbii mühitin və ümumiyyətlə ölkənin və cəmiyyətin iri miqyaslı fövqəladə hadisələrinin təsirindən etibarlı mühafizə edilməsi problemlərinə yetirilən diqqət qədər ciddi və əhəmiyyətli olmalıdır.

Ölkəmizdə fövqəladə hadisələrin yaranmasına, inkişafına, aradan qaldırılmasına və ləğv edilməsinə təsir göstərən təyinedici amillərə aşağıdakıları aid etmək olar: Azərbaycan Respublikasının təbii fəlakətlər ehtimalına görə dünyanın ən təhlükəli bölgələrindən biri olması; təhlükəli təbii proseslərin baş verməsinə səbəb olan təbii ətraf

mühitin tənəzzülü; insan fəaliyyətinə, ətraf mühitə potensial təhlükə törədən sənayenin sürətlə inkişafı; təhlükə potensiallı yeni texnologiyalar və onların geniş tətbiqi; yaşayış ərazilərinin və həyat təminatı sistemlərinin yaxınlığında təhlükəli obyektlərin və zərərli istehsalın yerləşdirilməsi; texnoloji avadanlıqların, nəqliyyat vasitələrinin, kəmərlərin və əsas istehsal fondlarının sürətlə aşınması; həyat fəaliyyətinin təhlükəsizliyi sahəsində əhalinin və mütəxəssislərin hazırlığının aşağı səviyyədə olması, nəticədə fövqəladə hadisələrin 98 faizinin antropogen xarakter daşıması; maliyyə və maddi vəsaitlərin, mülki müdafiə cihazları və avadanlıqlarının çatışmaması və s.

XXI yüzillikdə təhlükəsizlik faktorunun əhəmiyyətinin artması sivilizasiyanın ümumi sistem böhranının yaxınlaşması, həyat problemlərinin kəskinləşməsi və inkişaf yollarının radikal dəyişdirilməsi zəruriliyi ilə şərtləndirilir. Bu gün tam əminliklə söyləmək olar ki, şəxsiyyətin, cəmiyyətin, dövlətin, bütövlükdə bəşəriyyətin kompleks təhlükəsizliyinin təminatı yaxın onilliklərin əsas prioritetlərindən biri olacaq, müasir və proqnozlaşdırılan gələcək şərait üçün sivilizasiyanın mövcudluq strategiyasının əsasını təşkil edəcəkdir.

Qlobal problemlər fonunda ayrı-ayrı xalqların və ölkələrin təhlükəsizliyi – milli təhlükəsizlik problemi də yeni mahiyyət kəsb edir. Milli təhlükəsizlik problemi isə bir çox müxtəlif demoqrafik, hərbi, iqtisadi, ekoloji, siyasi və digər aspektlərə malikdir.

Elmi ədəbiyyatda fövqəladə halların mənşəyinə görə təsnifatı da mövcuddur. Bu əlamət üzrə fövqəladə hadisələr texnogen, təbii, ekoloji və sosial-siyasi mənşəli hadisələrə bölünür. Azərbaycan Respublikasında bu dörd növ fövqəladə hadisələrin hamısının baş vermə ehtimalı mövcuddur. Mürəkkəb geoloji iqlim və relyef şəraitinə malik Azərbaycan Respublikasının ərazisində 15-dən artıq cürbəcür təhlükəli təbii hadisə baş verə bilər.

Azərbaycan Respublikasının demək olar ki, bütün ərazisi zəlzələ təhlükəli, seysmik zona sayılır. Ölkənin seysmik rayonlaşdırma xəritəsinə əsasən respublikanın hər yerində 8 baladək, Şamaxı, İsmayıllı, Şəki-Balakən, Gəncə-Göygöl və Naxçıvan MR rayonları isə 9 baladək zəlzələ ehtimallı zonalar sayılır. Tarix ərzində Azərbaycanda baş vermiş (1139, 1667, 1727, 1902-ci illər və s.) zəlzələlər nəticəsində on minlərlə insan həlak olmuşdu. Azərbaycan Respublikası üçün seysmik təhlükənin müəyyən edilməsi, real qiymət-

ləndirilməsi və zəlzələnin proqnozu problemi böyük aktuallıq kəsb edir.

Ayrı-ayrı fərdlər, eləcə də cəmiyyət, dövlət, habelə bəşəriyyət üçün təhlükəsizlik yalnız fərdi surətdə deyil, ümumi kollektiv, kompleks halında həll edilməli məsələdir. Bu cəmiyyətin mövcudluğu və gələcək sağlam inkişafının əsas şərtlərindəndir. Bununla əlaqədar cəmiyyətin hər bir üzvünün həyat fəaliyyətində yalnız öz şəxsi mənafeyini deyil, bütövlükdə cəmiyyətin ən vacib ümumi tələbatının nəzərə alınması, insanların şüurunun, psixologiyasının, dünyagörüşünün, mentalitetinin kökündən dəyişməsi tələb olunur. Bütün bu problemlər həyat təhlükəsizliyinin ölkənin inkişaf və tərəqqisinin ən mühüm faktoruna çevrildiyini bir daha sübut edir.

Ölkənin 20-dən çox şəhəri və bir neçə yüzdən çox digər yaşayış məntəqələrində isə daşqın təhlükəsi mövcuddur. Bəzi hallarda, yağmurun normadan çox olduğu illərdə subasar torpaqların sahəsi 1,5 min kv. km-ə çatır. Son dövrlərdə ən intensiv daşqınlar 1997-ci ildə İsmayıllı, Qəbələ, Oğuz rayonlarında, 1999-cu ildə Naxçıvan MR-da, 2009-cu ildə Quba-Qusar və Gədəbəy-Daşkəsəndə, 2010-cu ildə Kür-ətrafı bölgələrində baş vermiş, ölkə iqtisadiyyatına və vətəndaşların təsərrüfatlarına on milyon manatlarla ziyan dəymişdi. Ölkəmizin ən ağır nəticələrə gətirib çıxaran təbii hadisələrindən biri də Xəzər dənizində suyun səviyyəsinin artmasıdır. Ölkəmizdə müşahidə olunan digər təbii hadisələr sırasında meşə yanğınları, qar yığınları və qar uçqunları, sürüşmə və uçqunlar dağlıq ərazilərdə baş verir. Bir sıra hallarda çoxlu maddi zərərə, tələfatlara səbəb olur. 1990-cı ildə hərbi dəniz donanması ərazisində, 1993-cü ildə Dəvəçi və Qusar rayonlarında sürüşmə nəticəsində insan tələfatı olmuş, 2000-ci ilin martında Bayıl yamacında, 2008-ci ildə Lerik rayonunda baş vermiş sürüşmə nəticəsində isə onlarla ev dağılmışdır.

2000-ci il martın 6-7-də Bayıl yamacında baş vermiş torpaq sürüşməsi ən fəlakətli sürüşmələrdən biri olmuşdu. Bayıl yamacında sürüşmə nəticəsində iki yaşayış evi, böyük diametrli su borusu, 4000 metrə qədər avtomobil yolu, bir sıra inzibati binalar və qurğular, qoruyucu istinad divarları və s. dağılmışdı. Torpaq sürüşməsi 20 hektar sahəni əhatə etmişdi. Son 20 il ərzində burada bir neçə dəfə (1985, 1987, 1988, 1989, 1998, 2000, 2006-cı illərdə) torpaq sürüşmələri baş verməsi nəticəsində Mingəçevir torpaq bəndi və yuxarı Qarabağ kanalı üçün təhlükə yaranmışdı. Ölkəmizdə 400-dən

artıq yanğın və partlayış təhlükəli obyektlər vardır ki, onların əksəriyyəti kimya, neft-kimya və neft emalı sahələrinə aiddir.

2012-ci ilin 9 ayı ərzində ölkə üzrə 6646 təbii və texnogen mənşəli hadisə baş vermişdir ki, bu da 2011-ci ilin müvafiq dövrü ilə müqayisədə 882 hadisə və ya 15 faiz çox olmuşdur. Baş vermiş təbii və texnogen mənşəli hadisələrin artması ilə yanaşı, onların nəticəsində 60 nəfər həlak olmuş, 83 nəfər xəsarət almış 143 nəfər xilas edilmiş, 26 nəfər təxliyə olunmuşdur. Bu 2011-ci ilin müvafiq dövrü ilə müqayisədə həlak olmuş insanlar üzrə 12 nəfər və ya 25 faiz, xilas edilənlər üzrə 107 nəfər və ya 3 dəfə, xəsarət alanlar üzrə 54 nəfər və ya 39 faiz, təxliyə olunanlar üzrə 284 nəfər və ya 29 faiz azdır. 2012-ci ilin 9 ayı ərzində ölkə ərazisində baş vermiş 1702 yanğın hadisəsi nəticəsində 44 nəfər həlak olmuş, 62 nəfər xəsarət almışdı. Bununla yanaşı 323 ədəd tikili, 24152 $m^2$ mənzil sahəsi, 91 ədəd nəqliyyat vasitəsi, 4 ton dənli, texniki və paxlalı bitkilər, 76 ha əkin sahəsi, 1948 ton yem, 238 baş mal-qara, 13856 ədəd ev quşları məhv olmuşdur. Təhqiqatı aparılmış yanğın hadisələri nəticəsində 16 nəfər insan, 791 baş mal-qara, 10 ədəd nəqliyyat vasitəsi və 1000234 manat dəyərində maddi sərvət xilas edilmişdir.

**İkinci yarımfəsildə** Azərbaycan Respublikasında fövqəladə halların idarə edilməsi və hüquqi bazası nəzərdən keçirilir**.** 1991-ci ildə öz istiqlaliyyətini yenidən bərpa etmiş Azərbaycan Respublikasının qarşısında bütün digər sahələrdə olduğu kimi fövqəladə hallarla mübarizə sisteminin də dövrün tələblərinə uyğun yenidən qurmaq, onun müstəqil qanunvericilik və hüquqi bazasını formalaşdırmaq kimi mühüm vəzifə dururdu.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 aprel 1992-ci il 239 nömrəli qərarı ilə fövqəladə halların qarşısının alınması və belə hallarda fəaliyyət üzrə keçmiş SSRİ-nin Ümumittifaq Dövlət Sisteminə daxil edilən Azərbaycan Respublikası Dövlət Məhəlli Sistemi yenidən təşkil edildi. Fövqəladə halların qarşısının alınması və belə hallarda fəaliyyət üzrə Azərbaycan Dövlət Sistemi yaradıldı, onun tərkibini, vəzifələrini, fəaliyyət qaydalarını müəyyən edən Əsasnamə və digər normativ sənədlər təsdiq edildi.

Azərbaycan Respublikasının Prezidentinin 1992-ci il 13 iyul tarixli fərmanı ilə "Azərbaycan Respublikasının Mülki Müdafiəsi haqqında Əsasnamə" təsdiq edildi. 1997-ci il iyunun 10-da qəbul edilmiş "Yanğın təhlükəsizliyi haqqında" Qanun Azərbaycan Respublikasında

insanların həyatının və sağlamlığının, milli sərvətin, mülkiyyətin bütün növlərinin yanğından qorunması məqsədilə fəaliyyət göstərən yanğın təhlükəsizliyi və dövlət yanğın nəzarəti sisteminin hüquqi əsasını və prinsiplərini müəyyən edir. 1997-ci il dekabrın 30-da qəbul edilmiş "Mülki müdafiə haqqında" Qanun Azərbaycan Respublikasında mülki müdafiənin hüquqi əsasını və prinsiplərini müəyyən edir, mülki müdafiə sahəsində ictimai münasibətləri nizama salır.

Lakin Azərbaycanın geosiyasi şəraiti ona mühüm üstünlüklər verməklə yanaşı, bir sıra təhlükəsizlik problemləri ilə də üzləşdirir. Bu problemlər içərisində ən ağırı heç şübhəsiz, Ermənistanın hərbi təcavüzü nəticəsində ölkə ərazisinin beşdə bir hissəsinin işğal olunması və təxminən bir milyon azərbaycanlının məcburi köçkün və qaçqına çevrilməsidir. Təcavüz nəticəsində Azərbaycan Respublikası vətəndaşlarına qarşı soyqırım və terror aktları daxil olmaqla sülhə və ictimai təhlükəsizliyə qarşı ən ağır cinayətlər törədilmişdir. Zəbt olunmuş ərazilərdə mütəşəkkil cinayətkar, o cümlədən beynəlxalq terrorçu qruplar fəaliyyət göstərməkdədir. Ermənistanın ərazisində azərbaycanlıların daimi yaşadıqları və Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində xalqımıza məxsus tarixi, mədəni və arxeoloji abidələr kütləvi surətdə dağıdılmış, təbii sərvətlər talan edilmiş, ətraf mühitə ciddi ziyan vurulmuşdur. Azərbaycan Respublikasının məruz qaldığı bu təcavüz onun hazırkı təhlükəsizlik mühitində və milli təhlükəsizlik siyasətinin müəyyən edilməsində əsas amilə çevrilmişdir.

Eyni zamanda, Azərbaycan Respublikasının təhlükəsizlik mühiti üçün beynəlxalq terrorizm, qeyri-qanuni miqrasiya, transmilli mütəşəkkil cinayətkarlıq, insan alveri, narkotik maddələrin qaçaqmalçılığı və kütləvi qırğın silahlarının yayılması kimi təhdidlərin mövcudluğu dövlət qarşısında müəyyən vəzifələr qoyur.

Müstəqillik illəri dövründə Azərbaycan dövlətinin fövqəladə hallarla mübarizə sahəsində topladığı təcrübənin tarixi baxımdan öyrənilməsinin mühüm əhəmiyyəti vardır.

Dissertasiyanın **"Azərbaycan Respublikasında fövqəladə hallarla mübarizənin dövlət sisteminin inkişafı"** adlı ikinci fəsli iki yarımfəsildən ibarətdir.

**Birinci yarımfəsildə** göstərilir ki, Azərbaycanın geosiyasi şəraiti ona mühüm üstünlüklər verməklə yanaşı, bir sıra təhlükəsizlik

problemləri ilə də üzləşdirir.

Təbii və texnogen fəlakətlərə və böhranlı vəziyyətlərinə hazır olmaq və onların qarşısını almaq dövlətin təhlükəsizlik siyasətinin əsas məsələlərindəndir. Məhz bu səbəbdən 2005-ci il dekabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikasında təbii fəlakətlərin, texnogen xarakterli qəzaların və yanğınların qarşısının alınmasının, onların nəticələrinin ardan qaldırılmasının, belə hallarda xilasetmə və bərpa işləri üzrə müvafiq orqanların fəaliyyətinin vahid mərkəzdən idarə olunmasını, ölkədə mülki müdafiə işinin təşkilini və həyata keçirilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi yaradıldı.

Həmin dövrdə bu sahədə dövlət siyasətinin əsas müddəaları işlənib hazırlanmış, milli mülki mühafizə konsepsiyasının nəzəri əsasları, hüquqi-normativ təminatı formalaşmışdı.

Potensial təhlükələrə qarşı tədbirlərin görülməsi üçün bütün əlaqədar qurumların və xidmətlərin birgə fəaliyyətini vahid mərkəzdən əlaqələndirməyə ehtiyac duyulurdu.

Fövqəladə Hallar Nazirliyinin qarşısında duran vəzifələrin həllində Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2006-cı il fevralın 28-də imzaladığı "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin təşkil edilməsi haqqında" fərmanının böyük rolu oldu.

Qərarda Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Təcili Xilasetmə Xidmətinin fəaliyyətinin təmin edilməsi məqsədi ilə "112" qaynar telefon xəttinin təşkili, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin təkmilləşdirilmiş xüsusi mühafizə xidmətinin yaradılması, "Xəzər İxtisaslaşdırılmış Hövzə Qəza-Xilasetmə" Açıq tipli Səhmdar Cəmiyyətinin balansında olan gəmiqayırma körpüləri və gəmiləri Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin tabeliyinə verilməsi öz əksini tapmışdı.

Fövqəladə Hallar Nazirliyi mülki müdafiə işinin təşkili ilə əlaqədar Təhsil Nazirliyi ilə birgə fəaliyyət proqramı hazırlanmışdır. Hazırda Azərbaycan Respublikasında Təhsil Sektorunun İnkişafı Layihəsi çərçivəsində ümumi orta təhsilin milli kurrikulumu hazırlanmışdır.

Orta ümumtəhsil, texniki peşə və orta ixtisas məktəblərində mülki mühafizənin tədrisi, həm bilik, həm də təcrübələr nəzərə alınmaqla daha da təkmilləşdirilmişdi. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə imzaladığı

anlaşma memorandumunda əsas məqsəd bu sahənin səmərəliliyini artırmaq, ölkədə fövqəladə hallar nəticəsində baş vermiş böhran və çətinliklər olduğu zaman əhaliyə dəymiş maddi və mənəvi ziyanların aradan qaldırılması ilə əlaqədar birgə xüsusi tədbirlər həyata keçirməkdən ibarət idi.

Fövqəladə Hallar Nazirliyinin ən mühüm strukturlarından biri də Mülki Müdafiə Qoşunlarıdır. Mülki Müdafiə Qoşunlarının kimyaçı mütəxəssisləri tərəfindən 2006-cı il martın 20-də Bakı şəhəri Binəqədi rayonu ərazisində çəkisi 40 kiloqramadək olan radioaktiv konteyner aşkar edilərək müvafiq qaydada Nazirliyin "İzotop" Xüsusi kombinatına təhvil verilmişdir.

Xüsusi Riskli Xilasetmə Xidməti 2008-ci ildə təcili axtarış-xilasetmə işlərinin yerinə yetirərək ölkə ərazisində baş vermiş 301 müxtəlif təyinatlı qəza zamanı 311 nəfərə ilkin təxirəsalınmaz və tibbi yardım göstərilmişdi.

**İkinci yarımfəsildə** Azərbaycan Respublikasında fövqəladə hallarla mübarizə sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə görülən işlər təhlil olunur. Göstərilir ki, fəaliyyətinin ilk ili ərzində Fövqəladə Hallar Nazirliyi bu məqsədlə bir sıra dövlətlər və beynəlxalq təşkilatlarla sazişlər və memorandumlar imzalamışdır.

2006-cı ildə Fövqəladə Hallar Nazirliyi Rusiyadan 16 ədəd yükü özüboşaldan, 20 ədəd bortlu nəqliyyat avtomobili, 50 ədəd yanğınsöndürən avtomobili, 1 ədəd helikopter alınmışdı. Elə həmin ildə Türkiyədən 12 ədəd iri tutumlu avtobus alınmış, Fransadan 90, Almaniyadan 86, Finlandiyadan 2 xüsusi yanğınsöndürmə texnikası ölkəyə gətirilmişdi. Rusiya Federasiyası tərəfi ilə aparılan danışıqlar nəticəsində amfibiya tipli BE-200 ÇS təyyarəsi gətirilmişdi.

2007-ci il dekabrın 17-də Bakıda, Azadlıq meydanında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Fövqəladə Hallar Nazirliyinin müvafiq qurumları üçün alınıb gətirilən və fövqəladə hallar zamanı istifadə edilən yeni texnika, avadanlıq və qurğuların təqdimatı oldu.

2008-ci ildə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin yeni inzibati binası əsaslı şəkildə yenidən qurularaq istifadəyə verildi. Naxçıvan Muxtar Respublikasında da fövqəladə hallarla mübarizə sisteminin daha da təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı məqsədyönlü tədbirlər davam

etdirilirdi.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi üçün xüsusi ixtisaslı ali təhsilli kadrların hazırlanmasını, əməkdaşların ixtisaslarının artırılmasını və fövqəladə hallar sahəsində elmi tədqiqat işlərinin aparılmasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasının yaradılması haqqında 2 iyun 2008-ci il tarixli, 2850 nömrəli sərəncamı imzaladı.

Dissertasiya işinin **"Azərbaycan Respublikasının fövqəladə hallarla mübarizə sahəsində beynəlxalq əlaqələri"** adlı üçüncü fəsli iki yarımfəsildən ibarətdir.

**Birinci yarımfəsildə** MDB, Türkiyə və Qərb ölkələri ilə əməkdaşlığın əsas istiqamətləri təhlil olunur. Ölkəmiz fövqəladə halların qarşısının alınması və onun nəticələrinin aradan qaldırılması üzrə dövlət sisteminin formalaşdırılması sahəsində mövcud beynəlxalq təcrübədən yararlanmağa xüsusi əhəmiyyət verirdi. Qardaş Türkiyə Cümhuriyyətinin müvafiq qurumları ilə sıx əməkdaşlıq əlaqələrinin dərinləşməsi, qarşılıqlı səfərlər, təcrübə mübadiləsinin aparılması nəticə etibarilə Azərbaycan Respublikasında yeni təşəkkül tapan sistemin qısa müddətdə formalaşdırılmasında önəmli rol oynadı.

Azərbaycan Respublikası FHN-nin əməkdaşları Ukraynanın Çernobıl faciəsinin nəticələrinin aradan qaldırılması və Fövqəladə Hallar Nazirliyinin təşkil etdiyi müxtəlif konfrans, treninq, seminar, yarış və təlimlərdə fəal iştirak edirlər. Ukrayna fövqəladə hallarla mübarizə sahəsində azərbaycanlı kadrların, yanğınsöndürmə üzrə mütəxəssislərin hazırlanmasında yaxından iştirak edir.

MDB ölkələri arasında Azərbaycan Respublikasının sıx əlaqələrinin inkişaf etdiyi ölkələr sırasında Belorus Respublikası xüsusi yer tutur. "2015-ci ilədək Azərbaycan Respublikası ilə Belorus Respublikası arasında uzunmüddətli sosial-iqtisadi əməkdaşlıq proqramının yerinə yetirilməsi üzrə tədbirlər" adlı sənəd fövqəladə hallar barədə xəbərdarlıq olunması və onların nəticələrin aradan qaldırılması sahəsində əməkdaşlığı da əhatə edir. Sənədin yeddi bəndində iki ölkənin Fövqəladə Hallar nazirlikləri arasında əməkdaşlıq haqqında sazişin həyata keçirilməsi, ərazilərdə və obyektlərdə radiasiya vəziyyətinin monitorinqi, radiasiya nəzarəti və ətraf mühitin, işçi heyətinin və əhalinin monitorinqi, cihaz və avadanlığın hazırlanması və ixracı, səhiyyə, gigiyena və sənaye sanitariyası sahəsində radiasiya nəzarəti, nüvə materiallarının və

radioaktiv materialların gözlənilmədən yayılmasına instrumental nəzarət və s. nəzərdə tutulurdu.

2007-ci il 16-17 iyul tarixlərində Bakı şəhərində Respublika FHN və ABŞ Enerji Departamenti tərəfindən "Zəlzələyə davamlı, enerji baxımından qənaətli inşaat materialları" mövzusunda keçirilmiş seminar azərbaycanlı mütəxəssislərin təcrübəsinin artırılması baxımından faydalı olmuşdu.

Sıx əməkdaşlığın qurulduğu ölkələr arasında Fransa Respublikası və bu dövlətin Daxili İşlər və Ərazi Abadlaşdırma Nazirliyi də mühüm yer tuturdu. Almaniya Federativ Respublikasının texniki əməkdaşlıq Cəmiyyəti ilə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi arasında sıx əlaqələr yaradıldı. 2007-ci ilin aprel ayında Bakıda iki dövlətin müvafiq strukturları arasında "Qafqaz təşəbbüsü çərçivəsində Azərbaycan Respublikasında ictimai yönümlü erkən xəbərdarlıq və fəlakətlərin qarşısının alınmasına dair Anlaşma Memorandumu" imzalandı. Azərbaycan Respublikasının son illərdə sıx əlaqələrinin inkişaf etdiyi ölkələr sırasında Belorus Respublikası xüsusi yer tutur.

**İkinci yarımfəsildə** Şərq ölkələri və beynəlxalq təşkilatlarla əlaqələrinin inkişafı məsələləri təhlil edilir. Belə ki, qısa müddət ərzində nazirliyin İordaniya Haşimilər Krallığı, Misir Ərəb Respublikası, Qətər, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, İsrail və Koreya Respublikasının müvafiq qurumları ilə əməkdaşlıq münasibətlərinin əsası qoyuldu.

Fövqəladə halların nəticələrinin ləğv edilməsi və xilasetmə əməliyyatlarının aparılmasında BMT zəngin təcrübəyə və çoxşaxəli struktura – müxtəlif agentlik, departament, komitə və missiyalara malikdir. Fəlakətlərin xəbərdar edilməsi, onların nəticələrinin minimuma endirilməsi; axtarış-xilasetmə əməliyyatlarının keçirilməsi; fəlakətlərin insana və milli təsərrüfata mənfi təsirinin azaldılması; zərərçəkmiş insanların reabilitasiyası; inkişaf proqramları üçün start şəraitin yaradılması və s. malikdir. Fövqəladə halların nəticələrinin ləğv edilməsi və xilasetmə əməliyyatlarının aparılmasında BMT-nin strukturuna daxil olan Qaçqınlar üzrə Ali Komissarlıq (UNCHR), Uşaq Fondu (UNİCEF), İnkişaf Proqramı (UNDP), Ətraf Mühit üzrə Proqram (UNEP), Beynəlxalq Səhiyyə Təşkilatı (WHO), Ərzaq Proqramı (WFP), Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Atom Enerjisi üzrə Beynəlxalq Agentlik (İAEA), Humanitar Məsələlər üzrə Koordinasiya ofisi (OCHA), eləcə də BMT-nin Fəlakətlərin Azaldılması Bürosu ilə əməkdaşlıq Azərbaycan üçün mühüm əhəmiyyət

kəsb etdi.

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin ötən müddətdə beynəlxalq xilasetmə əməliyyatlarında iştirakını, humanitar yüklərin çatdırılmasında, bütövlükdə dünyanın müxtəlif ölkələrində baş vermiş fövqəladə hallar və fəlakətlərin nəticələrinin aradan qaldırılmasında görülən işləri yüksək qiymətləndirən Azərbaycan Prezidenti İlham Əliyev qeyd etmişdir: "Fövqəladə Hallar Nazirliyi yaranandan sonra qısa müddət ərzində çox böyük işlər görüldü. Azərbaycanda təhlükəsizliyin təmin olunmasında, xilasetmə işlərinin düzgün qurulmasında çox böyük işlər görüldü... İnsanların təhlükəsizliyi və mümkün olan xoşagəlməz hadisələrin qarşısının alınması, təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması üçün Azərbaycan dövləti nə lazımdırsa edəcəkdir".[9]

Dissertasiyanın **nəticə** hissəsində tədqiqat əsasında əldə edilmiş ümumiləşdirmələr verilmiş, əhalinin maarifləndirilməsi üçün konkret təkliflər irəli sürülmüşdür.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Azərbaycan Respublikasında fövqəladə hallarla mübarizə sisteminin hüquqi bazasının formalaşması (1991-2005-ci illər)// Dirçəliş - XXI əsr. 2009, №133/134, v. 245-254.
2. Сотрудничество между Азербайджанской Республикой и Украиной в сфере предупреждения и ликвидации чрезвычайных ситуаций// Azərbaycan və Azərbaycanlılar. 2010, № 1-2, s. 149-153.
3. Fövqəladə hallarla mübarizə sahəsində Azərbaycan Respublikasının beynəlxalq əlaqələri //AMEA Tarix İnstitutunun Elmi əsərləri, 2010, № 32, s. 129-135.
4. Сотрудничество между Азербайджанской Республикой и Российской Федерацией в области предупреждения и ликвидации чрезвычайных ситуаций //Вопросы гуманитарных наук, Москва, 2010, № 2, с. 64-67.
5. Азербайджан в системе региональной безопасности: взаимо-

[9] Azərbaycan, 2008, 20 dekabr.

связь военных и невоенных аспектов// Кавказ и мир. Международный научный журнал. Тбилиси, 2010, № 5, с. 82-84.

6. Azərbaycan Respublikasında fövqəladə hallarla mübarizənin dövlət sisteminin maddi-texniki bazası və kadr potensialının möhkəmlənməsi //ADPU xəbərləri, 2010, № 4, s. 28-34.
7. Azərbaycan Respublikasında Fövqəladə hallarla mübarizə sisteminin təşəkkülü və inkişafı tarixindən. Bakı: "Asset", 2011. – 208

**A.I.Gasimov**

## The formation and development of the struggle system with the emergency situation in the Azerbaijan Republic (from 1991 to 2010 years)

### SUMMARY

In the shortest historical time was done much work in Azerbaijan Republic, was accumulated a rich experiment in the guarding of security and liquidation the consequence of elemental disaster in defense of population during the emergency situation. In the historical sense, studying and generalization of the accumulated experiment of the according organs, first of all again the forming state structure as the ministry of Emergency Situation of Azerbaijan Republic is a great practical importance.

In the first chapter of the dissertation - "The formation of the struggle system with emergency situation in Azerbaijan Republic (from 1991 to 2005 years) is investigated the general condition of the state struggle system with the emergency situation in the elementary stage of the development, the forming of the administrative apparatus and making juridical base.

In the second chapter - "The development of the state prevention system and liquidation the consequence of the emergency situation in Azerbaijan Republic (from 2005 to 2010 years)" was devoted to the elementary stage of the forming MES of Republic is analysed the activity of the stage structure for the strengthening of the material - technical base and the personnel potential of all services in the struggle system with emergency situation.

In the third chapter - "International cooperation of Azerbaijan Republic in the field of struggle with the emergency situation" - was devoted the development connection with the Cooperation Independent Countries, west countries, also analogical structures of USA, Germany, France and Turkey. Accordingly structure of MES of Azerbaijan Republic support the contacts with many international organizations, learn the experiment of the progressive countries.

In conclusion, there is given final analysis of all research study.

**А.И.Гасымов**

## Становление и развитие системы борьбы с чрезвычайными ситуациями в Азербайджанской Республике (1991-2010 гг.)

### РЕЗЮМЕ

В Азербайджанской Республике за короткое историческое время проделано много работ, накоплен богатый опыт в обеспечении безопасности и ликвидации последствий стихийных бедствий, в защите населения при чрезвычайных ситуациях. В историческом смысле, изучение и обобщение накопленного опыта соответствующих органов, прежде всего вновь образованной государственной структуры, как МЧС республики имеет большую практическую значимость.

В первой главе диссертации - «Становление системы борьбы с чрезвычайными ситуациями в Азербайджанской Республике (1991-2005-г.г.)» - исследуется общее состояние государственной системы борьбы с чрезвычайными ситуациями в начальном периоде становления, формирование управленческого аппарата и создания юридической базы.

Вторая глава – «Развитие государственной системы предотвращения и ликвидации последствий чрезвычайных ситуаций в Азербайджанской Республике (2005-2010 г.г.)» посвящена начальному этапу формирования МЧС республики, анализируется деятельность государственных структур в деле укрепления материально-технической базы и кадрового потенциала всех служб в системе борьбы с чрезвычайными ситуациями.

Третья глава диссертации - «Международное сотрудничество Азербайджанской Республики в области борьбы с чрезвычайными ситуациями» – посвящена развитию связей со странами СНГ, ряде западных стран, в том числе аналогическими структурами США, Германии, Франции и соседней Турцией. Соответствующие структуры МЧС Азербайджанской Республики поддерживают контакты с многими международными организациями, изучают опыт передовых стран.

В заключении подведен итог проведенных научных исследований.

Əla növ kağız, formatı 60x84 - $^{1}/_{16}$
Tirajı 100 nüsxə.
AMEA TIKM

НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА
ИСТИТУТ ИСТОРИИ им. А.А.БАКИХАНОВА

*На правах рукописи*

**АДАЛАТ ИСМАИЛ оглу ГАСЫМОВ**

# СТАНОВЛЕНИЕ И РАЗВИТИЕ СИСТЕМЫ БОРЬБЫ с ЧРЕЗВЫЧАЙНЫМИ СИТУАЦИЯМИ в АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ (1991-2010 гг.)

Специальность: 5503.02 – Отечественная история

# А В Т О Р Е Ф Е Р А Т

Диссертации на соискание ученой степени
доктора философии по истории

**Баку - 2013**